## Elektron xidmətlər sahəsində irəliləyiş

*BMT-nin «E-idarəçilik 2012» hesabatında respublikamızın mövqeyi yaxşılaşıb*

BMT-nin açıqladığı «E-idarəçilik 2012» adlı hesabatda dövlət xidmətlərinin göstərilməsində İKT-dən istifadə üzrə ölkələrdə dövlət orqanlarının hazırlığı və mövcud imkanları, gördüyü işlər, bu sahənin inkişafı üzrə ölkənin ümumi vəziyyəti araşdırılıb. Qiymətləndirmədə ölkələrin reytinqi 3 əsas komponentə əsasən müəyyən olunub: onlayn xidmətlərin miqyası və keyfiyyəti; İKT infrastrukturu; insan kapitalının inkişaf səviyyəsi.

Elektron hazırlıq indeksi üzrə Azərbaycan 93 ölkə arasında 96-cı yeri tutub. 0,4984 göstərici ilə respublikamız MDB-də Rusiya və Ukraynadan sonra «e-idarəçilik» imkanlarına görə ən yaxşı mövqeyə malik ölkə kimi qiymətləndirilib. Ümumiyyətlə, son 4 ildə qeyd olunan sahə üzrə ən sistemli və davamlı islahatlar aparan ölkə kimi Azərbaycanın mövqeyi 10 pillədən çox yüksəlib. Hesabatın ən mühüm komponentlərindən biri olan «elektron iştirak» indeksi üzrə Azərbaycan 27-ci yeri tutur. Respublikamızın qeyd olunan indeks üzrə mövqeyi Mərkəzi-Şərqi Avropa dövlətlərinin əksəriyyətindən xeyli yüksəkdir. Rumıniya, Slovakiya, Türkiyə, Bolqarıstan, Sloveniya, Belarus, Yunanıstan və digər ölkələr bu sahə üzrə respublikamızdan aşağı yerdədirlər. Onu da qeyd edək ki, Azərbaycan bu indeks üzrə son 4 ildə mövqeyini 2 dəfə yaxşılaşdırıb. Respublikamız 2008-ci ildə həmin indeks üzrə 49-cu yerdə qərar tuturdu.

*Azərbaycan informasiyalı cəmiyyətin formalaşmasında siyasi iradəyə malikdir...*

Bu gün qlobal informasiyalaşdırma və ümumdünya informasiya cəmiyyətinin formalaşdırılması sahəsində ən çox nəzərə çarpan tendensiyalardan biri elektron hazırlığın inkişafının sürətlənməsidir. Elektron hazırlıq elektron xidmətlərin tətbiqinin genişlənməsini təmin edir, eyni zamanda, «elektron hökumət» quruculuğuna doğru aparan yolun mühüm bir komponenti kimi çıxış edir. Bu mənada, elektron hazırlığın güclü olması həmin ölkədə e-xidmətlərin genişliyinə də mühüm təsir göstərir. Bütün bunların əsasında isə informasiya-kommunikasiya texnologiyalarından istifadə, İKT infrastrukturunun yaradılması kimi faktorlar mühüm əhəmiyyət kəsb edir.

BMT-nin son illərdə açıqladığı hesabatlarda və digər İKT qurumlarının rəylərində bir çox indikatorlar üzrə ölkəmizin regionda fərqlənməsi dövlətin siyasi iradəsinin əyani təzahürü kimi qiymətləndirilə bilər. Məsələn, «elektron iştirak» indeksi üzrə əmsal, eləcə də onlayn xidmətlərin miqyası ilə bağlı yüksək qiymət respublikamızda elektron cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımların atılmasını şərtləndirir. Azərbaycanın davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədi ilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib və bu sahədə sistemli tədbirlər davam etdirilir.

*Cəmiyyətdə elektron vərdişlər formalaşmaqdadır...*

Azərbaycan yeni mütərəqqi yeniliklərə doğru irəliləyən dünya ailəsinin bir üzvü kimi inkişaf etmiş dövlətlərin ən qabaqcıl texnologiyalarını tətbiq edərək, İKT-nin tətbiqi ilə bağlı düşünülmüş strategiya həyata keçirir. Bu strategiya ölkəmizdə «elektron hökumət» quruculuğu üçün çoxsistemli idarəetmə mexanizmlərinin formalaşdırılmasına xidmət edir. «Elektron Azərbaycan» Dövlət Proqramı, eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində güclü baza formalaşıb.

Azərbaycanda vətəndaşların informasiya-kommunikasiya texnologiyalarından sərbəst istifadə etməsi üçün bütün imkanlar yaradılıb. Hər bir azərbaycanlı İKT-dən maneəsiz istifadə etməklə internet vasitəsilə informasiya alır, lazım olan məlumatları toplayır, onları məhdudiyyətsiz paylaşır. Bu gün ölkəmizdə həyata keçirilən siyasətin əsas hədəflərindən biri elektron vərdişlərin inkişafını sürətləndirməklə cəmiyyətin informasiyalaşdırılmasını tam təmin etməkdir. Qloballaşma proseslərinin cəmiyyətin bütün fəaliyyət sahələrinə nüfuz edərək geniş vüsət aldığı bir dövrdə Azərbaycanda əsas məqsəd elmi-texniki tərəqqinin nailiyyətlərindən insanların rifahı naminə istifadə etməkdir.

*Elektron xidmətlər şəffaflığın təmin olunmasında ən vacib elementə çevrilir...*
Hazırda dünyada cəmiyyətin informasiya əldə etmək imkanları qarşısına çəkilən süni maneələr sürətlə götürülür, bu tendensiya elektron xidmətlərdən istifadənin coğrafiyasını genişləndirir, insanların kompüter və mobil telefonlar vasitəsilə onlayn ünsiyyət yaratmaq imkanlarının genişlənməsinə səbəb olur. İnternet resurslarının inkişaf etməsi müxtəlif növ xidmətlərin onlayn həyata keçirilməsini təmin edir. Elektron xidmətlər, ümumiyyətlə, İKT-nin son yenilikləri yeni sosial-iqtisadi formasiyanın - informasiya cəmiyyətinin yaranması və formalaşmasının bünövrəsini təşkil edir və cəmiyyətin demokratikləşməsində, insan hüquqlarının qorunmasında və şəffaflığın təmin olunmasında ən vacib elementə çevrilir. Buna görə də Azərbaycan hökuməti milli informasiya məkanının formalaşması, dünya informasiya məkanına inteqrasiyası, qlobal informasiya sistemlərinin yaradılması proseslərində fəal iştirak edir. Bu məqsədyönlü tədbirlər - elektron xidmətlərin göstərilməsinə hazırlıqla bağlı görülən işlər, «elektron hökumət» quruculuğu ölkəmizdə cəmiyyətin informasiyalaşdırılmasını təmin etməklə bərabər, Azərbaycanın elektron idarəçiliklə bağlı beynəlxalq miqyasda mövqeyinin və nüfuzunun daha da yüksəlməsinə səbəb olacaq.

**Elbrus CƏFƏRLİ**